# Balalarımızın sevimlisi, Almaniyada yaşayan soydaşımız şair və yazıçı Simax Şeydanın yeni şeirləri

## Güllərim

Bağçada gül əkmişəm,
Zəhmətini çəkmişəm,
Alın təri tökmüşəm,
Açın,açın güllərim
Ətir saçın güllərim

Boy atın gündən-günə,
Ucalın göy üzünə.
Sevinc bəxş edin mənə,
Açın, açın güllərim
Ətir saçın güllərim

Bir dəstə gül dərib mən,
Anama verdim dünən.
Anam öpdü üzümdən,
Açın, açın güllərim
Ətir saçın güllərim

*14. 05. 2017*
*Münhen*

## Zəhra bala

***Azərbaycanın sərhəd bölgələrinin birində ermənilər 2 yaşlı Zəhra balaya qəsd etmişlər***

Təzə-təzə yeriyirdin,
Danışırdın şirin-şirin.
Ana, nənə qucağıydı,
Zəhra bala, sənin yerin.

Yazın gözəl bir günündə
Rast gəldin sən bir gülləyə.
Qoymadılar çağırasan

“Ana” deyə, “nənə” deyə.

Haray ellər! Bir körpənin
Qəlbini qan eylədilər.
Gülüşünü, yerişini
Gülləbaran eylədilər.

Yer də, göy də bu halına
Qan ağladı, Zəhra bala.
Araz axdı coşa-coşa,
Kür çağladı Zəhra bala.

Bil ki, yerdə qalmayacaq
Sənin qanın heç bir zaman.
Qisasını alacaqdır
Bir gün anam Azərbaycan.

Uyu şirin-şirin, qızım,
Uyu torpaq beşiyində.
Sənə layla çağırsın qoy
Əsən sərin küləklər də.

*28. 07. 2017*

## Başı uca olar

Orden alıb
Atam bu gün.
Mən də yaman
Şadam bu gün.

Təbrik edir,
Dost, tanışlar.
Bir-bir gəlib,
Gedir onlar.

Sevinc ilə
Atam deyir:
“Zəhmətimin

Bəhrəsidir”.

Zəhmət çəkib
Çalışsa kim.
Başı uca
Olar daim.

*01. 06.2017*
*Münhen*

## Nə üçun belə deyir

Bir “Əlifba“ kitabı
Alginən, ana, mənə.
Vərəqləyim birbəbir
Baxım şəkillərinə.

Bacım icazə vermir,
Götürüb baxım ona.
Deyir: “Birdən cırarsan,
Get o tərəfdə oyna”.

Bilirəm ki, kitabı
Cırmaq olmaz, anacan.
Nə üçün belə deyir,
Mənə bacım Mehriban?

*28.05.2017*
*Münhen*

# Bilmirsənmi

Anasından soruşdu
Bir dəfə kiçik Bağır:
–Niyə günəş səhərlər,
Ay da axşamlar çıxır?

Eşidib bu sualı
Dedi balaca Qəmər:
–Bilmirsən, yəqin onlar
Bir-birindən küsüblər?

*30. 04. 2017*
*Münhen*